**Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirinin təyin edilməsi və səfirliyin fəaliyyətinin təşkili haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 121-4-cü maddəsinin 12-ci bəndini əsas tutaraq **qərara alıram:**

1. Tamerlan Yelmar oğlu **Qarayev** Azərbaycan Respublikasının Çin Xalq Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, səfirliyin fəaliyyətinin təminatı ilə bağlı maliyyə və maddi-texniki təchizat məsələlərini bir ay müddətində həll etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi səfirliyin diplomatik və texniki heyətlə təmin olunması məsələlərini həll etsin.

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**Heydər ƏLİYEV**.

Bakı şəhəri, 3 sentyabr 1993-cü il
758.